# Heydər Əliyev adına Neft Emalı Zavodunun kollektivi yüksək göstəricilərə nail olmaq əzmindədir

Heydər Əliyev adına Neft Emalı Zavodunun (NEZ) kollektivi ötən ili uğurla başa vurmuşdur. Başa çatan 2015-ci il zavodun modernləşdirilməsi, yenidənqurma işlərinə başlanılması və texnoloji qurğularda bir sıra mühüm işlərin yerinə yetirilməsi ilə yadda qaldı. Onu da qeyd edək ki, zavodun rekonstruksiya və modernizasiyası ilə bağlı işlər çərçivəsində müəssisənin illik emal gücünün artırılması və zavodda "Avro-5" standartlarına cavab verən daha yüksək keyfiyyətli neft məhsullarının istehsalı nəzərdə tutulur. Bu məqsədlə zavodun ilkin emal, katalitik krekinq və katalitik riforminq qurğularının və ümumi zavod təsərrüfatının rekonstruksiya edilməsi və bir neçə yeni qurğunun inşası planlaşdırılır.





Müəssisənin ən mürəkkəb texnoloji quruluşa malik qurğusu sayılan 21№-li ED-AV-6, katalitik krekinq və digər qurğuların saz vəziyyətdə saxlanması, fasiləsiz iş rejiminin təmin edilməsi və standartlara uyğun yüksək keyfiyyətli məhsul istehsalına nail olmaq üçün onların fəaliyyətləri ilboyu diqqət mərkəzində saxlanılmış, vaxtaşırı olaraq müvafiq təmir işləri aparılmışdır. Bütün bunlardan əlavə, yaxın vaxtlarda həmin qurğularda neftin emalı prosesinin daha da dərinləşdirilməsinə xidmət edən bir sıra digər mühüm işlər də görüləcəkdir. Belə ki, "Avro-5" standartının tələblərinə uyğun avtomobil benzinlərinin istehsalını təşkil etmək məqsədilə Dövlət Proqramı çərçivəsində Heydər Əliyev adına NEZ-də ilkin emal qurğusunun (ED-AVQ-6) istehsal gücünün artırılması, keyfiyyət göstəricilərinin yaxşılaşdırılması, yanacaq-enerji sərfiyyatının azaldılması və digər istismar xərclərinin aşağı salınması üçün yenidənqurma işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Həyata keçiriləcək tədbirlər sırasında katalitik krekinq qurğusunun gücünün artırılması, keyfiyyət göstəricilərinin yaxşılaşdırılması, istismar xərclərinin aşağı salınması, dizel yanacaqlarının keyfiyyət göstəricilərinin artırılması və nəticədə NEZ-də istehsal olunan bütün növ avtomobil benzinlərinin tərkibində benzolun miqdarının Avropa standartlarına çatdırılması da vardır.

Dünyada baş verən iqtisadi çətinliklərlə bağlı SOCAR-da, o cümlədən zavodda da real vəziyyətlə bağlı tədbirlərin görülməsi zərurəti yaranmış və müvafiq işlərin görülməsinə başlanılmışdır.

Bu yaxınlarda zavodda keçirilən müşavirədə SOCAR prezidentinin "Maliyyə dayanıqlığı və xərclərin optimallaşdırılması haqqında" əmrinə əsasən, zavodun direktoru Elman İsmayılov gücləndirilmiş qənaət rejiminin tətbiqi və israfçılığın qarşısının alınması məqsədilə müəssisənin məsul şəxslərinə müvafiq tapşırıqlar vermişdir. Artıq göstərişlərin icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində xərclərin optimallaşdırılması və gücləndirilmiş qənaət rejiminə keçidlə bağlı bir sıra işlərin görülməsinə başlanmışdır. Belə ki, zavodun daxilində suyun məsrəfinə nəzarəti təmin etmək üçün əlavə sayğacların quraşdırılması məqsədəuyğun hesab edilmiş və bunun üçün əlavə olaraq, 90 ədəd müxtəlif ölçülü su sayğacının istehsalat və sahələr üzrə quraşdırılmasına başlanmışdır.

Həmçinin zavodda istifadə olunan buxar və yanacağa qənaət məqsədilə hesabat aparılmayan yerlərə hesabat qovşaqlarının (daraldıcı quruluşlar və ölçü qurğuları) quraşdırılması prosesinə başlanmışdır. Artıq kollektiv müəssisədə xeyli miqdarda su, buxar, elektrik enerjisinə qənaət etməyə müvəffəq olmuşdur.

Eyni zamanda, texnoloji qurğularda qənaət rejimi ilə bağlı tədbirlərin görülməsi qarşıda duran mühüm vəzifələrdəndir. Bu vəzifələr texniki suyun soyudulması üçün havasoyuducularının mövsümə uyğun olaraq minimum səviyyədə işlənməsi, qurğularda mövcud olan susoyuducularına verilən dövri suyun, su buxarı verilən aparat və avadanlıqlarda texniki rejim normalarına əməl olunmaqla izafi miqdarda işlənməsinə yol verilməməsi, istehsalat, qurğu və sahələrə verilən içməli, texniki və yanğınsöndürmə sularının normalar daxilində istifadə olunması işlərini yerinə yetirməyi zəruri edir.

Sözsüz ki, gücləndirilmiş qənaət rejiminə əməl olunması, görülən məqsədyönlü tədbirlər israfçılığın qarşısının alınmasında mühüm rol oynayacaq, çəkilən xərclərin azalmasına kömək edəcək ki, bu da zavodun maliyyə durumuna öz müsbət təsirini göstərəcəkdir.

Artıq 2016-cı ilin ilk həftələrini yaşayırıq. Müəssisənin istehsalat və sahələrində normal iş ahəngi davam edir, kollektiv iqtisadi uğurların davamlı olması, ölkənin neft məhsullarına olan tələbatının ödənilməsi üçün mövcud imkanlardan maksimum istifadə etməyə çalışır.

Məlum olduğu kimi, 2015-ci ilin əvvəlindən SOCAR prezidentinin əmrinə əsasən, öz tabeliyində hüquqi şəxs statuslu müəssisə kimi fəaliyyət göstərən "Azərneftyağ" NEZ-in fəaliyyətinə xitam verilmiş və Heydər Əliyev adına Neft Emalı Zavoduna qoşularaq birgə xammalın emalı və neft məhsullarının istehsalı təşkil edilmişdir. Azərbaycan Respublikasının təsdiq olunmuş yanacaq-enerji balansına müvafiq SOCAR-ın Baş Ofisi tərəfindən zavoda 2015-ci il üzrə 6551,8 min ton xam neft və "Qaradağ" QEZ-dən 25,3 min ton qaz benzini, cəmi 6577,1 min ton xammalın emalı planlaşdırılmışdır.

Faktiki olaraq, həmin ilin yekunlarına görə, 6478,9 min ton neft və 146,6 min ton kənardan daxil olan müxtəlif növ xammal, cəmi 6625,5 min ton xammal emal edilmişdir. Təyin olunan ümumi xammalın emalı üzrə plan 100,7% yerinə yetirilmişdir.

2014-cü ilin yekunları ilə müqayisədə 2015-ci ildə ümumi xammalın emalı 297,4 min ton çox olmuşdur və bu göstərici üzrə artım 4,5% təşkil etmişdir.

2015-ci il ərzində zavodun ayrı-ayrı istehsal sahələrində texnoloji intizamın yaxşı səviyyədə olması və yaranmış şəraitə uyğun iş rejiminin seçilməsi nəticəsində işçilər tərəfindən sərf olunan enerji resurslarına qənaət edilmişdir.

2015-ci ilin əvvəlindən iki neft emalı zavodunun birləşməsinin məqsədi vahid emal zavodunun əsas fəaliyyətinin optimallaşdırılması ilə bağlı olmuşdur. Bununla belə, zavoda daxil olan yüksək keyfiyyətli neftlərin həcmi artmışdır və onların potensialını nəzərə alaraq zavodun emal sxemi təkmilləşdirilmişdir. Texnoloji qurğuların və xüsusilə də təkrar emal proseslərinə aid katalitik krekinq və tədrici kokslaşma qurğularının gücündən səmərəli istifadə edilmişdir. Lakin SOCAR-ın tapşırığına əsasən, "Azərenerji" ASC üçün nəzərdə tutulmuş həcmdə soba mazutunun ilin ikinci yarısında istehsalını təmin etmək məqsədilə zavodda "mazut rejimi" tətbiq edilmiş və bunun nəticəsində 2015-ci ilin əvvəlindən neftin faktiki emal dərinliyi 4,8% aşağı düşərək 91,5% təşkil etmişdir. Buna baxmayaraq, təyin olunan plana qarşı emal dərinliyi 1,6% artıq olmuşdur.

2015-ci ildə neft məhsullarının ümumi çeşidləri üzrə istehsal planı 100,6% yerinə yetirilmişdir. İlin əvvəlindən 1223,9 min ton avtomobil benzini, 2741,7 min ton reaktiv mühərrik və dizel yanacaqları, 157,6 min ton maye qaz, 254,8 min ton neft koksu, 171,8 min ton neft bitumu, 63,6 min ton DT və A markalı mühərrik yanacağı, 24,6 min ton müxtəlif növ sürtkü yağları, kimya sənayesi üçün 195,3 min ton hidrotəmizlənmiş benzin və 64,9 min ton təmizlənmiş quru qaz, "Azərenerji"yə və başqa təşkilatlara 319 min ton soba mazutu və sair neft məhsulları istehsal edilmişdir.

Neft məhsullarının satış planı 100,7% yerinə yetirilmişdir. 2015-ci ilin əvvəlindən ümumi neft məhsullarının satışı 6078,6 min ton təşkil etmişdir ki, bunun 3858,2 min tonu respublika daxilində realizə olunmuş və 2220,4 min tonu isə ixrac edilmişdir. Belə ki, ümumi satışda ixracın payı 36,5% təşkil etmişdir. Zavodda istehsal olunan mühərrik yanacaqlarının 30,7%-i xarici bazarda satılmışdır.

Heydər Əliyev adına Neft Emalı Zavodunun kollektivi cari ildə də dövlət plan-tapşırıqlarını yerinə yetirərək ölkə iqtisadiyyatına öz töhfələrini verməklə, yüksək əmək göstəricilərini əldə etmək əzmindədir.



**Şamil Həşimov,**
"Neftayıran" qəzetinin redaktoru